**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№** 015/509

**Bakı şəhəri** "20" fevral 2026-cı il

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2024-2025-ci illər üzrə rəsmi məlumatlarına əsasən, Filippin Respublikasının Rizal (Rizal), Bulakan (Bulacan), Laquna (Laguna), Sultan Qudarat (Sultan Kudarat), Bataan (Bataan), Tarlac (Tarlac), Benqet (Benguet), Maqindanao (Maguindanao), Panqasinan (Pangasinan), Quezon (Quezon), Kalinqa (Kalinga), Leyte (Leyte), Şimali Kamarines (Camarines Norte) əyalətlərində, Çex Respublikasının Plzen (Plzeňský) diyarında, Avstriya Respublikasının Aşağı Avstriya (Niederösterreich) ştatında, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Şotlandiya hissəsinin Anqus (Angus) inzibati ərazi vahidində, Amerika Birləşmiş Ştatlarının Kentukki (Kentucky), Arkanzas (Arkansas), Nebraska (Nebraska), Tennessi (Tennessee), Viskonsin (Wisconsin) ştatlarında **yüksək patogen quş qripi** xəstəliyi, İraq Respublikasının Diyalə (Diyala) əyalətində isə qeydə alınmış **blutanq** xəstəliyi aradan qaldırılıb.

Belə ki, yuxarıda göstərilən ölkələrin həmin inzibati ərazi vahidlərində aradan qaldırılmış xəstəliklər üzrə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adıçəkilən ölkələrin sadalanan inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 13.11.2017-ci il tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatları və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, sözügedən xəstəliklərin baş verməsinə görə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

**1.1.** 22.09.2020-ci il tarixli 62 nömrəli qərarla Filippin Respublikasının Rizal əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.** 22.02.2022-ci il tarixli 015/190 nömrəli qərarla Filippin Respublikasının Bulakan əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.3.** 05.03.2022-ci il tarixli 018/193 nömrəli qərarla Filippin Respublikasının Laquna əyalətinə tətbiq edilmiş məhdudiyyət;

ƏSLİ İLƏ DÜZDÜR Abbasov T.K. 20.02.2026

**1.4.** 30.03.2022-ci il tarixli 021/196 nömrəli qərarla Filippin Respublikasının Sultan Qudarat Bataan, Tarlac əyalətlərinə tətbiq edilmiş məhdudiyyət;

**1.5.** 12.04.2022-ci il tarixli 023/198 nömrəli qərarla Filippin Respublikasının Benqet əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.6.** 16.05.2022-ci il tarixli 032/207 nömrəli qərarla Filippin Respublikasının Maqindanao əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.7.** 10.08.2022-ci il tarixli 045/220 nömrəli qərarla Filippin Respublikasının Panqasinan, Quezon əyalətlərinə tətbiq edilmiş məhdudiyyət;

**1.8.** 19.09.2022-ci il tarixli 055/230 nömrəli qərarla Filippin Respublikasının Kalinqa əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.9.** 10.01.2023-cü il tarixli 001/252 nömrəli qərarla Çex Respublikasının Plzen diyarına tətbiq edilmiş məhdudiyyət;

**1.10.** 16.04.2024-cü il tarixli 026/346 nömrəli qərarla Filippin Respublikasının Leyte adasına tətbiq edilmiş məhdudiyyət;

**1.11.** 31.10.2024-cü il tarixli 070/390 nömrəli qərarla Avstriya Respublikasının Aşağı Avstriya ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.12.** 10.01.2025-ci il tarixli 002/408 nömrəli qərarla Filippin Respublikasının Şimali Kamarines əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.13.** 15.01.2025-ci il tarixli 003/409 nömrəli qərarla Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Şotlandiya hissəsinin Anqus inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.14.** 27.10.2025-ci il tarixli 065/471 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Viskonsin ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.15.** 30.12.2025-ci il tarixli 088/494 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Kentukki ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.16.** 19.01.2026-cı il tarixli 005/499 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Arkanzas, Nebraska və Tennessi ştatlarına tətbiq edilmiş məhdudiyyət.

**Blutanq xəstəliyi üzrə:**

**1.17.** 15.01.2024-cü il tarixli 002/322 nömrəli qərarla İraq Respublikasının Diyalə əyalətinə tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentliyin Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Agentliyin Aparatının Strateji planlaşdırma, koordinasiya və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentliyin Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**5.** Agentliyin Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.
20.02.2026.